استثمر رمضان بسننه

# Ramazan ayından sünnə ibadətləri ilə istifadə et


**Şeyx Heysəm Sərhan**

"Sünnə" tədris mərkəzinin rəhbəri


Tərcümə edən: İlqar Eyvazoğlu

Azərbaycan dili 2 اللغة الأذرية


ALSARHAAN.COM
MAHADSUNNAH.COM

## ƏGƏR ORUCUN SAVABINI TAM ƏLDƏ ETMƏK VƏ ONUN RUHUNU HISS ETMƏK İSTƏYİRSƏNSƏ, MÜTLƏQ ORUCUN SÜNNƏLƏRİNƏ ƏMƏL ET.

**Bu sünnələrdən bəziləri bunlardır:**

- Gecənin sonunda bir qurtum su ilə olsa belə sahur etmək.

Peyğəmbər ﷺ buyurub:

“Sahur yeməyi bərəkətdir. Sizlərdən biriniz bir qurtum su içməklə belə, onu tərk etməsin. Çünki uca Allah və mələkləri sahur edənlər üçün salavat edərlər.” (Əhməd /1108)

- Əzan verildikdən sonra təzə xurma ilə iftarı tez etmək. Təzə xurma tapmasa quru xurma ilə, onu da tapmasa hədisdə gəldiyi kimi bir neçə qurtum su iə iftar etmək.
- İftar edən zaman Peyğəmbərin ﷺ bu duasını oxuyaraq dua etmək: “Zəhəbəzzaməu vab-təllətilururq va səbətəl əcru inşəAllah”
  (Susuzluq getdi və damarları islandı. Allah istəsə savab yazıldı) (Abu Davud 2357)
- Oruc tutanlara İftar vermək: Hədisdə gəlib ki, Peyğəmbər ﷺ belə dedi:
  “Kim bir orucluya iftar verərsə, oruc tutanın savabından azalmamaq şərti ilə oruc tutanın savabını tam şəkildə əldə edir.” (Tirmizi /807)

- Ramazanda ümrə etmək: Peyğəmbər ﷺ buyurub:

“Ramazanda ümrə etmək həcc etməyə bərabərdir.” (Buxari və Muslim)

- Ramazan ayının gündüzlərini zikr,dua, quran oxumaq və növ bə növ xeyir işlərlə məşğul olmaq.

Ramazan ayı, imanın qalxması, cənnəti əldə etmək və cəhənnəmdən qurtulmaq üçün fürsətdir.

Peyğəmbər (Allahın ona salavatı və salamı olsun) buyurub:

“Burnu yerlə sürünsün o kəsin ki, Ramazan ayına daxil olub, bu ayda bağışlanmamış ramazan ayından çıxsın.” (Tirmizi /3545)

**Allah daha doğrusun bilir**